| | |
|---|---|
| **AKTIN NÖVÜ** | AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARLARI |
| **QƏBUL EDİLDİYİ TARİX** | 17.04.2000 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 67 |
| **ADI** | Kənd təsərrüfatı ilə məşğul olmaq üçün məcburi köçkünlərə torpaq sahələrinin istifadəyə ayrılması Qaydasının təsdiq edilməsi haqqında |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 30-04-2000, Nəşr nömrəsi: 04, Maddə nömrəsi: 313) |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | 17.04.2000 |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 150.000.000<br>250.000.000 |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | 01.07.2011 |

**Kənd təsərrüfatı ilə məşğul olmaq üçün məcburi köçkünlərə torpaq sahələrinin*istifadəyə* ayrılması Qaydasının təsdiq edilməsi haqqında**[1]

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 8 iyul tarixli, 149 nömrəli Fərmanının 1-ci bəndinin 6-cı abzasının icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Kənd təsərrüfatı ilə məşğul olmaq üçün məcburi köçkünlərə torpaq sahələrinin ayrılması Qaydası" təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A.RASİZADƏ**

Bakı şəhəri, 17 aprel 2000-ci il
67

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2000-ci il 17 aprel tarixli, 67 nömrəli qərarı ilə
təsdiq edilmişdir

**Kənd təsərrüfatı ilə məşğul olmaq üçün məcburi köçkünlərə torpaq sahələrinin*istifadəyə* ayrılması**[2]

**QAYDASI**[3]

1. Bu Qayda "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş kənd təsərrüfatı ilə məşğul olmaq üçün məcburi köçkünlərə torpaq sahələrinin *istifadəyə* ayrılmasını tənzimləyən sənəddir.

*1-1. Məcburi köçkünlərə dövlət mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin icarəyə verilməsi "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikası Qanununun 10-1-ci maddəsinə uyğun olaraq həyata keçirilir.*[4]

2. "Qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli üzrə" Dövlət Proqramına uyğun olaraq kənd rayonlarında məskunlaşmış məcburi köçkünlərə müvəqqəti istifadə və icarə məqsədi ilə dövlət ~~və bələdiyyə~~ torpaqları hesabına qanunvericiliklə müəyyən edilmiş qaydada sahələr ayrılır.[5]

3. Məcburi köçkünlərə müvəqqəti istifadəyə ~~və icarəyə~~ torpaq sahələrinin ayrılması üçün onlar məskunlaşdıqları rayon (şəhər) icra hakimiyyətlərinə və ~~ya bələdiyyələrə~~ ərizə ilə müraciət edirlər. Ərizədə ayrılacaq torpaq sahəsinin yeri, növü, həcmi və istifadə məqsədi göstərilməlidir.[6]

4. Yerli icra hakimiyyətləri ~~və ya bələdiyyələr~~ 7 gün müddətində həmin ərizəni tələb edilən sahənin ayrılmasının mümkünlüyünə baxılması və müvafiq yerquruluşu sənədlərinin hazırlanması üçün *Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin (bundan sonra – Əmlak Məsələləri Dövlət Xidməti) yerli bölməsinə* göndərirlər.[7]

5. *Əmlak Məsələləri Dövlət Xidmətinin yerli bölməsi* 10 gün müddətində ərizədə göstərilmiş torpaq sahəsinə baxış keçirir və *dövlət torpaq kadastrının məlumatları əsasında* tələb edilən sahənin digər hüquqi və fiziki şəxslərin istifadəsinə verilmədiyi halda həmin torpağın 1:10000 və ya 1:25000 miqyasında xəritəsini hazırlayır (tələb edilən sahə şəhər və qəsəbələrin hüdudlarında yerləşdiyi halda memarlıq xidmətinin rəyini almaqla) və öz rəyi ilə birlikdə müvafiq icra hakimiyyətinə ~~və ya bələdiyyəyə~~ qaytarır.[8]

6. Yerli icra hakimiyyətləri ~~və ya bələdiyyələr~~ 10 gün müddətində *Əmlak Məsələləri Dövlət Xidmətinin yerli bölməsindən* daxil olan sənədlərə baxır, kənd təsərrüfatı məhsulları istehsal etmək üçün məcburi köçkünlərə müvəqqəti istifadəyə ~~və icarəyə~~ torpaq sahəsi ayrılması barədə (yerli şəraiti, torpaq ehtiyatının miqdarını, əhalinin sıxlığını nəzərə almaqla) müvafiq qərar qəbul edirlər.

7. Yerli icra hakimiyyətləri ~~və ya bələdiyyələr~~ məcburi köçkünlərə müvəqqəti istifadəyə ~~və ya icarəyə~~ torpaq sahəsi ayrılması barədə qərarı və ayrılan sahənin planını (ölçüsünü) hazırlamaq üçün *Əmlak Məsələləri Dövlət Xidmətinə və Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinə* göndərirlər.[9]

8. *Əmlak Məsələləri Dövlət Xidməti və Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti bu Qaydanın 7-ci hissəsində qeyd olunan sənədləri 10 gün müddətində dövlət büdcəsinin vəsaiti hesabına torpaq sahəsi üzrə qanunvericilikdə nəzərdə tutulmuş sənədlərin hazırlanması və məcburi köçkünlərə təqdim edilməsi üçün Əmlak Məsələləri Dövlət Xidmətinin müvafiq yerli bölməsinə göndərir.*[10]

Müvəqqəti məskunlaşmış məcburi köçkünlərə ~~müvəqqəti istifadəyə~~ və icarəyə bələdiyyələr tərəfindən onların mülkiyyətində olan torpaqların ayrılması bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydalarına uyğun həyata keçirilir.[11]

9. Məcburi köçkünlər torpaq sahələrindən istifadə edərkən onlara qanunvericilikdə müəyyən edilmiş qaydada güzəşt və imtiyazlar şamil edilir.

10. Məcburi köçkünlərə müvəqqəti istifadə üçün ayrılmış torpaq sahələrində əsaslı tikinti işlərinin aparılmasına, habelə təyinatdan kənar istifadə hallarına yol verilmir.

11. Şəhər və rayon mərkəzlərində məskunlaşmış məcburi köçkünlərə torpaq sahələri qanunvericiliyə uyğun olaraq

müvafiq rayonların ərazisindən növbəlilik əsasında verilir.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 8 iyul 2002-ci il tarixli 105 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, 07, maddə 445**)
2. 20 noyabr 2006-cı il tarixli 242 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 11, maddə 994**)
3. 17 fevral 2009-cu il tarixli **29** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 02, maddə 152)**
4. 4 noyabr 2015-ci il tarixli **354** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 11, maddə 1418)**
5. 28 fevral 2019-cu il tarixli **67** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 3 mart 2019-cu il, 51 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 2, maddə 363**)
6. 19 noyabr 2021-ci il tarixli **361** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 28 noyabr 2021-cu il, 258 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 11, maddə 1284)**

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 28 fevral 2019-cu il tarixli **67** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 3 mart 2019-cu il, 51, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 2, maddə 363** ) ilə adına "**sahələrinin**" sözündən sonra "**istifadəyə**" sözü əlavə edilmişdir.

[2] 28 fevral 2019-cu il tarixli **67** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 3 mart 2019-cu il, 51, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 2, maddə 363** ) ilə "Kənd təsərrüfatı ilə məşğul olmaq üçün məcburi köçkünlərə torpaq sahələrinin ayrılması Qaydası"nın adına və 1-ci hissəsinə "**sahələrinin**" sözündən sonra "**istifadəyə**" sözü əlavə edilmişdir.

[3] 20 noyabr 2006-cı il tarixli 242 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 11, maddə 994**) ilə Qaydanın mətnində ismin müvafiq hallarında "Dövlət Torpaq Komitəsi" sözləri müvafiq olaraq "Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi " sözləri ilə əvəz edilmişdir.

[4] 28 fevral 2019-cu il tarixli **67** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 3 mart 2019-cu il, 51, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 2, maddə 363** ) ilə "Kənd təsərrüfatı ilə məşğul olmaq üçün məcburi köçkünlərə torpaq sahələrinin ayrılması Qaydası"na yeni məzmunda 1-1-ci hissə əlavə edilmişdir.

[5] 8 iyul 2002-ci il tarixli 105 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, 07, maddə 445**) ilə 2-ci bənddən **"və bələdiyyə"** sözləri, 3-cü bənddən **"və ya bələdiyyələrə"** sözləri, 4,6 və 7-ci bəndlərdən **"və ya bələdiyyələr"** sözləri, 5-ci bənddən **"və ya bələdiyyəyə"** sözləri çıxarılmışdır.

[6] 28 fevral 2019-cu il tarixli **67** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 3 mart 2019-cu il, 51, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 2, maddə 363** ) ilə "Kənd təsərrüfatı ilə məşğul olmaq üçün məcburi köçkünlərə torpaq sahələrinin ayrılması Qaydası"nın 3-cü və 6-cı hissələrindən "**və icarəyə"** sözləri, 7-ci hissədən "**və ya icarəyə**" sözləri çıxarılmışdır.

[7] 4 noyabr 2015-ci il tarixli **354** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 11, maddə 1418)** ilə 4-cü, 5-ci, 6-cı və 8-ci hissələrdə ismin müvafiq hallarında "**rayon (şəhər) torpaq şöbəsi**" sözləri ismin müvafiq hallarında "**Əmlak Məsələləri Dövlət Komitəsinin ərazi bölməsi**" sözləri ilə əvəz edilmişdir.

19 noyabr 2021-ci il tarixli **361** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 28 noyabr 2021-cu il, 258 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 11, maddə 1284)** ilə "Kənd təsərrüfatı ilə məşğul olmaq üçün məcburi köçkünlərə torpaq sahələrinin istifadəyə ayrılması Qaydası"nın 4-cü hissəsində "**Əmlak Məsələləri Dövlət Komitəsinin ərazi bölməsinə**" sözləri "**Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin (bundan sonra – Əmlak Məsələləri Dövlət Xidməti) yerli bölməsinə**" sözləri ilə əvəz edilmişdir.

[8] 28 fevral 2019-cu il tarixli **67** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 3 mart 2019-cu il, 51, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 2, maddə 363** ) ilə "Kənd təsərrüfatı ilə məşğul olmaq üçün məcburi köçkünlərə torpaq sahələrinin ayrılması Qaydası"nın 5-ci hissəsinə "**tələb edilən**" sözlərindən əvvəl "**dövlət torpaq kadastrının məlumatları əsasında**" sözləri əlavə edilmişdir.

19 noyabr 2021-ci il tarixli **361** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 28 noyabr 2021-cu il, 258 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 11, maddə 1284)** ilə "Kənd təsərrüfatı ilə məşğul olmaq üçün məcburi köçkünlərə torpaq sahələrinin istifadəyə ayrılması Qaydası"nın 5-ci və 6-cı hissələrdə ismin müvafiq hallarında "**Əmlak Məsələləri Dövlət Komitəsinin ərazi bölməsi**" sözləri ismin müvafiq hallarında "**Əmlak Məsələləri Dövlət Xidmətinin yerli bölməsi**" sözləri ilə əvəz edilmişdir.

[9] 20 noyabr 2006-cı il tarixli 242 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 11, maddə 994**) ilə "Kənd təsərrüfatı ilə məşğul olmaq üçün məcburi köçkünlərə torpaq sahələrinin ayrılması Qaydası"nın 7-ci bəndinin "**, ayrılmış torpaq sahəsindən müvəqqəti istifadə (icarə) hüququna dair müvafiq sənədləri** " sözləri çıxarılmışdır.

17 fevral 2009-cu il tarixli **29** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 02, maddə 152)** ilə 7-ci bənddə **«planını (cizgisini)»** sözləri **«planını (ölçüsünü)»** sözləri ilə əvəz edilmişdir.

19 noyabr 2021-ci il tarixli **361** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 28 noyabr 2021-cu il, 258, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 11, maddə 1284**) ilə "Kənd təsərrüfatı ilə məşğul olmaq üçün məcburi köçkünlərə torpaq sahələrinin istifadəyə ayrılması Qaydası"nın 7-ci hissəsində "**Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi və Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinə**" sözləri "**Əmlak Məsələləri Dövlət Xidmətinə və Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinə**" sözləri ilə əvəz edilmişdir.

**[10]** 20 noyabr 2006-cı il tarixli 242 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 11, maddə 994**) ilə "Kənd təsərrüfatı ilə məşğul olmaq üçün məcburi köçkünlərə torpaq sahələrinin ayrılması Qaydası"nın 8-ci bəndin birinci abzasında "torpaqdan müvəqqəti istifadə hüququna dair sənədi hazırlayır və torpaq üzərində onların hüquqlarının dövlət qeydiyyatına alınması və torpaqdan istifadə (icarə) məqsədilə" sözləri "torpaq sahəsi üzrə qanunvericiliklə nəzərdə tutulmuş sənədlərin hazırlanması və məcburi köçkünlərə" sözləri ilə əvəz edilmişdir.

4 noyabr 2015-ci il tarixli **354** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 11, maddə 1418**) ilə 7-ci və 8-ci hissələrdə ismin müvafiq hallarında "**Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi və Naxçıvan Muxtar Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi**" sözləri ismin müvafiq hallarında "**Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi və Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi**" sözləri ilə əvəz edilmişdir.

19 noyabr 2021-ci il tarixli **361** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 28 noyabr 2021-cu il, 258, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 11, maddə 1284**) ilə "Kənd təsərrüfatı ilə məşğul olmaq üçün məcburi köçkünlərə torpaq sahələrinin istifadəyə ayrılması Qaydası"nın 8-ci hissənin birinci abzası yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~*Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi və Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin* 10 gün müddətində dövlət büdcəsinin vəsaiti hesabına məcburi köçkünlərin torpaq sahəsi üzrə qanunvericiliklə nəzərdə tutulmuş sənədlərin hazırlanması və məcburi köçkünlərə təqdim edilməsi üçün müvafiq *Əmlak Məsələləri Dövlət Komitəsinin ərazi bölməsinə* göndərilir.~~

**[11]** 8 iyul 2002-ci il tarixli 105 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, 07, maddə 445**) ilə 8-ci bəndə yeni redaksiyada ikinci abzas əlavə edilmişdir.

17 fevral 2009-cu il tarixli **29** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 02, maddə 152**) ilə 8-ci bəndin ikinci abzasından **«müvəqqəti istifadəyə və»** sözləri çıxarılmışdır.